UOT 159.9

***Solmaz Qüdrət qızı Həsənli***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti*

# NATAMAM AİLƏLƏRDƏ UŞAQLARIN SOSİALLAŞMASI VƏ ORTAYA ÇIXAN PSİXOLOJİ PROBLEMLƏRİN ARADAN QALDIRILMASI YOLLARI

***Солмаз Гудрат гызыГасанлы***
*доктор философии по педагогике, доцент*
*Азербайджанского Государственного*
*Педагогического Университета*

# СОЦИАЛИЗАЦИЯ ДЕТЕЙ В НЕПОЛНЫХ СЕМЬЯХ И ПУТИ ПРЕОДОЛЕНИЯ НЕКОТОРЫХ ПРОБЛЕМ

***Solmaz Kudrat Hasanlı***
*PhD in pedagogy, associate professor*
*of Azerbaijan State Pedagogical University*

# SOCİALİZATİON OF CHİLDREN İN SİNGLE-PARENT FAMİLİES AND WAYS TO OVERCOME SOME PROBLEMS

**Xülasə:** Məqalədə natamam ailələrdə uşaqların sosiallaşma məsələləri araşdırılır, ortaya çıxan problemlər təhlil olunur və bu problemlərin həlli yolları göstərilir.
***Açar sözlər:*** *sosiallaşma, uşaqlıq, psixo-fizioloji xüsusiyyətlər*

**Резюме:** В статье рассмотрены вопросы социализации детей в неполных семьях, а также проанализированы некоторые проблемы и указаны пути их решения.
***Ключевые слова:*** *социализация, детство, психофизиологические особенности*

**Summary:** Socialization problems in incomplete families were searched, arisen problems were analysed and solving ways of these problems were given in the article.
***Keywords:*** *socialization, childhood, psycho-physiological features*

Bildiyimiz kimi, natamam ailələr, adətən, boşanmalar və ya valideynlərdən birinin ölümü nəticəsində meydana gəlir. Belə ailələrdə uşaqların düşdükləri ağır psixoloji vəziyyət onların sosiallaşmasına birbaşa olaraq mənfi təsir göstərir. Təbiidir ki, uşaq gələcəkdə qazanacağı sosial rola öz cinsindən olan valideynlərinin davranışlarını mənimsəyərək, onları nümunə götürərək yiyələnir. Eyni zamanda, uşağın əks cins haqqında, onun rolları ilə bağlı ilkin düşüncələri ailədə formalaşır. Ailədəki valideyn rolları gələcəkdə qazanılan ilk sosial rollardır. Bu ilk sosiallaşdırma qurumunda qazanılan rollar uşaqların sahib olduqları cəmiyyətə adaptasiyasında önəmli rol oynayır.

Helmut Fend həyatda qazanılan sosial rolları iki qrupa ayırmışdır: 1. Təməl rollar. Bunlar insanda fizioloji olaraq mövcud olan və ilkin olaraq ailədə qazanılan rollardır (yaş, cins, irq, ailə və ya qohumlar içərisindəki mövqe ilə müəyyənləşir). Bir ailədə bir uşağın dünyaya gəlməsi ilə ana, ata, qardaş, bacı, əmi, dayı, xala, bibi kimi statusların qazanılması kimi. Bunlar istəyə bağlı olmadan qazanılan rollardır. 2. Qazanılmış rollar. Bu rollar insanın işinə, təhsilinə, peşəsinə görə və müxtəlif situasiyalarda qazanılan rollardır. Qazanılmış rollardan başqa müstəqil rollar da vardır ki, bu rollar insanın xüsusi maraq və qabiliyyəti ilə bağlıdır. Bu rolların həyata keçirilməsi insanın istək və arzula-

rına, maraqlarına uyğun olaraq onun müstəqil davranış və fəaliyyəti üzərində qurulur. Burada bir cəhəti qeyd etmək gərəklidir ki, təməl rolların qazanılması sonradan qazanılmış rollara yiyələnməkdə önəmli rol oynayır. Ona görə də ailədə qazanılan təməl rollar insanları bir növ gələcək rolları qazanmağa hazırlayır.

Ailədə valideynlərdən hər hansı birinin yoxluğu, əgər onu əvəz edəcək başqa birisi yoxsa, uşaqları sosial rol üçün gərəkli nümunədən məhrum edir. Bəzən günümüzdə sosial-psixoloji problem olan maskulinizasiya və feminizasiya hadisəsi də daha çox gərəkli valideyn nümunəsinin olmamasından irəli gəlir. Bildiyimiz kimi, latın dilində olan "feminizasiya" - oğlanlarda qıza məxsus keyfiyyətlərin, "maskulinizasiya" isə qızlarda oğlanlara xas keyfiyyətlərin formalaşmasıdır. Heç şübhəsiz ki, bu məsələ günümüz üçün aktual olan problemlərdən biridir.

Yuxarıda da qeyd etdiyimiz kimi, natamam ailələrin meydana gəlməsinin əsas səbəblərindən biri ailədə valideynlərdən birinin ölümüdür. Ailədə valideynlərdən hər hansı birinin vəfatı kiçik yaşlı uşaqlar üçün dərk edilməyən bir hadisədir. Təsadüfi deyil ki, bu dövrdə uşaqlar ata və ya ananın ölümünü bilsələr də tez-tez valideynlərinə "Atam nə vaxt gələcək?", və ya "Anam nə vaxt gələcək?" kimi suallarla müraciət edirlər. Bu da, əsasən, uşaqların ölüm hadisəsini dərk etməmələri ilə bağlıdır. Uşaqlar 8-10 yaşlarında ölüm hadisəsinin artıq geri dönülməsi mümkün olmayan bir hadisə olaraq qavrayırlar. Ata və ya ananın itirilməsi uşaqda fiziki və psixo-sosial baxımdan bir çox problemlərin yaranmasına səbəb olur. Bir çox hallarda valideynlərdən birinin itirilməsi uşaqlarda süstlük, içəqapanıqlıq meydana gətirir ki, bu da onların sosiallaşmasına mənfi təsir göstərir. Kiçik yaşlarda valideynini itirmiş bir çox uşaq sanki ətrafında baş verən hadisələrə qarşı laqeyd olur. Bəzən isə bu yaşdakı uşaqlar valideyni itirməklə daha da aqressiv davranışlar göstərir, ətraflarına ziyan verməkdən xüsusi həzz alırlar ki, bunun da nəticəsində onlar insanlar, xüsusən də həmyaşıdları tərəfindən sosial qəbul görmürlər. Yeniyetmə və gənclər isə ata və ya ananın hər hansı birinin ölümünü yaşlı insanların məntiqi ilə qarşılayırlar. Ölüm nəticəsində valideynini itirmiş uşaqda itirilən valideynə qarşı hörmət və məhəbbət qarışıq bir həsrət yer alır. Bəzən itirilən valideynin müsbət cəhətlərlə daha çox xatırlanması uşaqların psixo-sosial inkişafında böyük rol oynayır. Bunu belə izah etmək mümkündür ki, itirilmiş valideynin xatirəsinə hörmət uşaqda sosial davranış qaydalarına ciddi diqqət etməsinə səbəb olur.

İngilis psixiatrı F. Brown araşdırmasında 216 depressiyaya düşən insanların təxminən beşdə ikisinin 15 yaşından əvvəl ata və ya anasından birini itirdiyini ortaya çıxarmışdır. Halbuki bu vəziyyət bu dövrdə ata və ya anasından hər hansı birini itirməyən insanlarda ortalama olaraq yeddi insandan birində müşahidə edilmişdir. Bu araşdırmada ortaya çıxan ən önəmli cəhətlərdən biri də dörd yaşında atasını itirən uşaqların yuxarı yaşlarda depressiyaya düşmə nisbətinin digərlərinə görə iki dəfə daha çox olması idi. F. Brown araşdırmasında bu nəticəyə gəlmişdir ki, uşaqlıq dövründəki (ölümlə bağlı) acı və kədər yuxarı yaşlarda depressiya kimi bir psixi xəstəliyin yaranmasında ən önəmli faktorlardan biridir (4, 11).

Boşanma nəticəsində valideynlərindən hər hansı birindən ayrılan uşaqlarda isə vəziyyət başqa cürdür. Ailədə baş verən boşanmalar uşaqlara psixoloji baxımdan daha ciddi təsir göstərən psixo-sosial problemdir. Boşanmalar nəticəsində valideynlərindən hər hansı birindən ayrı yaşamağa məcbur olan uşaqlarda güvənsizlik hissi, içəqapanıqlıq və ya aqressiv davranışlar özünü göstərir ki, bu da uşaqların sosiallaşmasına mənfi təsir göstərir, onlar sosial qəbul görməkdə önəmli problemlər yaşayırlar. Bir çox hallarda natamam ailədə, uşaqlara gərəkli nəzarətin olmadığı bir şəraitdə onlar cinayətkarlığa yönəlmiş uşaq qruplarına daxil olur və normal qruplarda qəbul görməyən uşaqlar burada özünütəsdiqə yönəlirlər ki, bu hal da uşaq cinayətkarlığını artırır. Boşanmış ailələrdəki cinayətə yönəlməyən uşaqlar isə cəmiyyətə qarşı küskün olur və bir çox psixoloji travmalara məruz qalaraq sarsıntı və stresslərlə dolu bir həyat keçirirlər, onlarda bir çox hallarda sosial fobiyalar meydana gəlir. Bəzən boşanmalar ailədə uşaqların ağır depressiyalara düşməsinə, intiharlara belə səbəb olur və təbii olaraq bu haqda heç bir məlumatı olmayan valideynlər uşaqlara yardımda yetərsiz qalırlar.

Ailənin boşanma nəticəsində dağılması ilə uşaqların problemləri çoxalır. Çox vaxt atalar

boşanmadan sonra övladları ilə maraqlanmırlar və onların bütün problemlərinin həllini ananın öhdəsinə buraxırlar. Ümumiyyətlə, ailədə atanın yoxluğu uşaqların psixoloji və sosial baxımdan inkişafına mənfi təsir göstərən amillərdən biridir. Çünki ata sevgisi də ana sevgisi qədər uşaqların şəxsiyyətinin formalaşmasında önəmlidir. Atadan sevgi, qayğı görməyən uşaqlarda güvənsizliklə yanaşı atılmışlıq hissi yaranır, onlarda özlərinə hörmət itir, nəticədə sosial həyata uyğunlaşmada ciddi problemlər ortaya çıxır. Xüsusən də belə uşaqlarda sosial mühitə, insanlara qarşı kəskin bir düşmənlik hissi formalaşır. Belə uşaqlar olduqları qruplarda tez-tez ünsiyyət problemləri yaşayırlar və digər insanlar onları anormal davranışlarından dolayı üzvü olduqları sosial qruplardan uzaqlaşdırır, onlar yoxmuş kimi davranırlar. Bir çox hallarda belə uşaqlar ətrafdakı insanlara var olduqlarını sübut etmək üçün aqressiv davranışlara daha çox meyilli olurlar.

Bir çox ailələrdə ananın ata rolunu oynaması da uşaqlara mənfi təsir göstərir. Aparılan araşdırmalar boşanmış ailələrdəki uşaqlarda psixoloji və sosial uyğunsuzluq faizinin yüksək olduğunu ortaya çıxarmışdır. Belə uşaqlar istər məktəbdə sinif kollektivində, istərsə də sonralar daxil olduqları qruplarda uyğunlaşma problemləri yaşayırlar. Belə uyğunlaşma problemlərinin ən geniş yayılmış olanları psixoloji çöküntü (ən üst həddi uşaq depressiyaları), təlimdə uğursuzluq və müxtəlif asosial davranışlarıdır.

Məktəbəqədər və yeniyetməlik yaşı dövründə olan uşaqlara boşanmalar daha çox təsir göstərir. Bildiyimiz kimi, bu dövrlər insan həyatının ən həssas dövrləridir və bu dövrdə uşaqların sosial və psixoloji baxımdan normal inkişafında hər iki valideynin rolu əvəzedilməzdir. Uşaqlar ən çox bu dövrlərdə ata-ana dəstəyinə ehtiyac hiss edər, onların hər zaman yanında olmalarını istəyərlər.

Dünyanın bir çox ölkələrində boşanmanın uşaqlara mənfi təsirinin qarşısının alınması üçün müəyyən tədbirlər görülür. Lakin bu tədbirlər uşaqların itirdikləri qarşısında yetərsiz qalır və bir o qədər də önəm daşımır. Son zamanlarda mütəxəssislər tərəfindən boşanmanın uşaqlara vurduğu mənəvi və sosial-psixoloji zədələrin qarşısını almaq üçün onların müəyyən müddət valideynlərinin hər ikisi ilə də ünsiyyət tələbatının ödənilməsinin vacib olduğunu göstərirlər. Beləliklə də uşaqlar boşanma ilə ata və anadan hər hansı birini itirmir və psixoloji sarsıntıya məruz qalmırlar. Təbiidir ki, burada valideynlərdən hər hansı birinin qarşı tərəfə münasibətdə mənfi düşüncə və davranışlarını uşaqlara aşılamaması, onlara bu baxımdan psixoloji təsir göstərməməsi çox önəmlidir.

Ailələrdə baş verən boşanma müxtəlif yaşlardakı uşaqlara sosial-psixoloji baxımdan müxtəlif cür təsir göstərir. Boşanma 2-2,5 yaşlarında olan uşaqda çevrədəki insanların diqqətindən kənarda qalamaq istəyinin ortaya çıxarır, o, insanların diqqət mərkəzində olmaqdan qorxur. 3-4,5 yaşlarında olan uşaqlarda aqressiv davranışlar meydana gəlir. Uşaq valideynlərin bir-birindən ayrılmasının günahını özündə görür, özünə güvəni, inamı itir, əsasən təxəyyülü inkişafdan qalır, sosial davranışlardan çəkinir. 5-6 yaşlarında yuxarıdakı mənfi davranışlarla birlikdə narahatlıq, şişirdilmiş qorxular özünü göstərir, aqressiv davranışlar özünün ən son həddinə çatır. Kiçik məktəbli yaşı dövründəki (I-IV siniflər) uşaqlar şiddətli sarsıntı, qorxu və narahatlıq kimi hisslər keçirirlər. Uşaqlar bəzən özlərini güvənsizlikdə hiss etdiklərindən bu ehtiyacı başqa bir ehtiyacın həddən artıq təmin edilməsi ilə basdırırlar. Bu zaman bir çox uşaq həddən artıq yeməyə meyl göstərməklə özlərinin güvənsizlik ehtiyacını başqa bir təbii ehtiyacın ödənilməsi ilə əvəz etmiş olurlar. Təbiidir ki, bu da bir çox hallarda uşaqların artıq çəki problemi ilə qarşı-qarşıya qalmalarına səbəb olur. Bəzən isə uşaqlar özlərini günahkar sayaraq tamamilə yeməkdən imtina edirlər.

Ailədə qız uşaqlarına nisbətən oğlan uşaqlarına boşanma daha çox mənfi təsir göstərir. Boşanma uşaqlarda mənlik şüurunun formalaşmasında da problemlərə səbəb olur. Boşanmadan sonra valideynlərdən hər hansı biriylə yaşayan uşaqlarda təlimdə geridə qalma, yalan danışma, oğurluq, sosial həyatda cinsi rolla bağlı düşüncə və davranışda müəyyən təzadlar yaşamaq kimi xüsusiyyətlər ortaya çıxır.

Uşaq psixo-sosial problemlər nəticəsində dərsdə diqqətin mərkəzləşməsində çatışmamazlıq, diqqətin asanlıqla və həddən artıq yayınması kimi hallarla qarşılaşırlar. Eyni zamanda, belə uşaqlarda daha çox görülən xəyallara qapılma təlimdə uğuru aşağı salır. Sadəcə ana tərbiyəsi

ilə böyüyən oğlan uşaqlarının kişilik etalonuna yiyələnməsi çətin olur. Boşanmış ailədən gələn uşaqlar sinif kollektivinə qoşulmurlar. O, öz ailəsinin yoldaşlarının ailəsi kimi tam olmadığını anlayır və bu düşüncənin onda formalaşdırdığı aşağılıq və əziklik hissi yaşayır. Uşağa görə, onun ata-anası yoldaşlarının ata-anasından bacarıqsız və fərsizdir. Elə bu səbəbdən də bir yerdə yaşamağı bacarmırlar. Buna görə uşaq öz yoldaşlarının həyatına, daha doğrusu, ailəsinə həsəd hissi ilə baxır, özünü onlardan fərqli görür.

Lakin bir cəhətə diqqət yetirmək gərəklidir ki, boşanma hər uşaqda anormal davranışlara səbəb olmur. Bəzi uşaqlara bu hadisə bir o qədər də mənfi təsir göstərmir. Uşaqların boşanmadan ən az zərər görmələri üçün ata-analar boşanma hadisəsini uşaqların anlaya biləcəkləri bir dildə, aydın şəkildə və atanın ananı, ananın isə atanı günahkar çıxarmadan onlara açıqlanmalıdır. Ata-analar uşaqları onların tərəfini tutmağa məcbur etməməli və onları münaqişələrdən kənar tutmağa çalışmalıdırlar. Təbiidir ki, boşanma hadisəsi uşaq üçün nə qədər aydın izah edilsə də xoşagələn bir hadisə deyildir və onun uşağa bir müddət mənfi təsir göstərəcəyi qaçılmazdır. Valideynlər bu çətin situasiyadan uşağın az zədə alaraq çıxmasını təmin etmək üçün ona yardım etməli, boşanmada onun özünü günahkar saymasının qarşısını almalı və ona başa salmalıdırlar ki, hər iki valideynin bir-birindən ayrılmasında onun heç bir günahı yoxdur. Boşanmadan sonra uşağı rədd etmək və ya onu həddən artıq qorumaq yerinə valideynlər onun bu reallığı qəbul etməsinə köməklik göstərməlidirlər. Lazım gəldikdə psixoloqa müraciət olunmalıdır. Uşaq həm atanı, həm də ananı ehtiyacı olduğu qədər görməlidir.

Ölkəmizdə boşanmalar nəticəsində uşaqların, demək olar ki, böyük əksəriyyəti ana ilə yaşayır. Bu, bizim cəmiyyətimizdə ananın öz övladını tərk etməsinə mənfi bir hal kimi baxılmasından, ananın uşağı gələcək həyata hazırlanmasında, özgüvən hissinin qazanılmasında və son nəticədə uğurlu sosiallaşmada önəmli rol oynamasının bir toplum şüurunda böyük əhəmiyyət daşımasından irəli gəlir.

**Məqalənin aktuallığı.** Araşdırılan mövzu natamam ailələrdə uşaqların uğurlu sosiallaşmasını təmin etmək baxımından önəmlidir.

**Məqalənin elmi yeniliyi.** Natamam ailələrin uşaqların sosiallaşmasına təsirinin bu məqalədə araşdırma obyektinə çevrilməsi, elmi ümumiləşdirmələr aparılması, onlara əsaslanaraq təhlil edilməsi elmi yeniliyi müəyyən edir.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalədən məktəb psixoloqları, müəllimlər, tərbiyəçilər, valideynlər faydalanmaqla natamam ailələrdən olan uşaqların uğurlu sosiallaşmasına gərəkli psixoloji yardım göstərmə imkanına sahib olarlar.

## Ədəbiyyat:

1. Sula Wollff. Problem Çocuklar ve Tedavi (Çocuk ve Stres), İstanbul. 1986.
2. Vaughan G., Hogg M. A. Sosyal Psikoloji. İstanbul, 2015.
3. Atalay Yörükoğlu. Çocuk Ruh Sağlığı Çocuğun Kişilik Gelişimi, Yetiştirilmesi ve Ruhsal Sorunları. Ankara. 1986.
4. Robert Kastenbaum və Ruth Aisenberg. The Psychology of Death, New York, 1976.

**E-mail**: solmazhasanli@hotmail.com
**Rəyçi:** *ped.ü.elm.dok., prof.* R.İ. Əliyev
**Redaksiyaya daxil olub: 05.11.2018**